# DÜNYANIN ƏN QƏDİM TEATRLARI

*(İlk onluq)*



■ Niyaz Cəfərov
*teatrşünas*

**Antik zamandan bu yana teatr ən mükəmməl incəsənət növü hesab edilir. Aktyorların səhnədə var etdikləri bu sənətdə hər şey var. Bu gün də teatr öz aktuallığını itirməyib. İndi də dünya miqyaslı ismə sahib elə teatrlar mövcuddur ki, burada bir tamaşanı izləyə bilmək üçün həftələr və hətta aylar öncə bilet sifariş etmək gərəkdir. Bu sayımızda isə dünyada iz qoymuş ən qədim on antik teatr haqqında məlumatı sizlərə təqdim edirik:**

### 1. Sid teatrı

Sid-Aralıq dənizi sahilində, Antalya yaxınlığında qədim şəhər-ilk dəfə e.ə VII əsrə aid mənbələrdə adı çəkilir. Əsası Qərbi Anadoludan gəlmiş yunan müstəmləkəçilər tərəfindən qoyulan şəhər, sonralar Roma imperiyasının tərkibində geniş ticarət mərkəzinə çevrilmişdi. Çoxsaylı zəlzələlərə baxmayaraq şəhərin antik xarabalığı, şəhər darvazaları, amfiteatr və s. günümüzə kimi qorunub saxlanmışdır. 15000 nəfərlik tutumu olan teatr onilliklər ərzində şəhərin mədəni mərkəzi olmuşdur. Roma imperiyasının süqutu zamanı teatr arenası qladiator döyüşləri üçün, xristianlığın çiçəkləndiyi zamanlar isə kilsə kimi istifadə edilirdi.

### 2. Bosra teatrı

Bosra- indiki Suriya ərazisində, Dəməşqdən cənubda qədim şəhər. İlk dəfə e.ə XIV əsrdə misir fironları III Tutmos və IV Amenhotepə məxsus sənədlərdə adı xatırlanır. Şəhər Roma imperiyası dövründə romalılar tərəfindən işğal olunaraq imperiyanın əyalətlərindən Petranın paytaxtına çevrilmiş və tezliklə burada teatr ucaldılmışdı. Bosra teatrı-dairəvi səhnəsi, pilləkənə bənzər oturacaqları (35 sıra), yüksək divarları (3 mərtəbəli ev hündürlüyündə), 15000 nəfərlik seyrçi tutumu ilə tipik Roma amfiteatrıdır. Mükəmməl akustikası ilə bu teatr günümüzə qədər olduqca mükəmməl qorunub-saxlanmış qədim teatr hesab olunur.

### 3. Delfa teatrı

Delfa-qədim və dini nöqteyi-nəzərdən mühüm yunan şəhəri. Əfsanəyə görə Apollon məbədi və kahini burada məskunlaşmış, məşhur Pifiya oyunları burada keçirilmişdir. Şəhərin tarixi hissəsində Pifiyalı Apollon məbədinin qalıqları, teatr və digər qədim tikililər qorunub-saxlanmışdır. Beş min nəfər üçün nəzərdə tutulmuş amfiteatr e.ə IV əsrdə təpə üzərində inşa edilmişdir. Teatrda aparılan restavrasiya işlərinə baxmayaraq vəziyyəti heç də ürəkaçan deyil. Divarlar və oturacaqların yarıdan çoxu, bir neçə memarlıq elementləri dağılmışdır.

### 4. Amman teatrı

Amman - ellin-roma dövründə Filadelfiya adını daşıyan, bu gün isə İordaniyanın paytaxtı olan şəhər. Burada Antoni Piyin hakimiyyəti (138-161-ci illər) dövründə inşa edilmiş Roma amfiteatrının xarabalığı xüsusi diqqətəlayiqdir. Altı min seyirci üçün nəzərdə tutulan böyük bir hissəsi qorunub saxlanan teatr və odeaon iki tərəfdən sütunlarla əhatə olunmuşdur. İlk başlarda teatr Dekumanus çayı yaxınlığında yerləşirdi, indi isə çay qurumuşdur, həmçinin teatra mərkəzi giriş rolunu oynayan tağ şəkilli üç darvazası da yoxa çıxmışdır. 1948-ci ildə Amman teatrı İsraildən qaçmış fələstinli qaçqınlar üçün sığınacaq olmuşdu.

### 5. Taormin teatrı

Taormin, daha dəqiq isə Tavromenion - Siciliyanın şərq sahilində yerləşən yunan müstəmləkəsi. Bu şəhərdə teatr e.ə II əsrdə inşa edilmişdir. Onun tikilməsi üçün yunanlar yüz min kubmetrlik əhəng daşlarını yüksəkliyə daşıyaraq dağı hamarlamışlar. On min nəfərlik oturacaqlar dənizə tərəf yerləşdirildiyindən onların üzərindən Etna vulkanına, Naksos boğazına, şəhərə və Aralıq dənizinə heyranedici mənzərə açılır. Roma imperiyası dövründə teatr genişləndirilmiş və təmir olunaraq qladiator döyüşləri üçün arena kimi istifadə edilmişdi. Bu gün dünyanın böyük antik teatrlarından olan Taormin teatrı qədimliyinə görə sadəcə Sirakuza məbədindən geri qalır.

### 6. Merida teatrı

Qədim ispan şəhərciyi olan Merida-da diqqətəlayiq məkanlar çoxdur, lakin teatr xüsusi əhəmiyyət kəsb edir. Merida teatrı da Roma teatrları arxitekturasının klassik nümunəsini özündə əks etdirir və altı minlik tamaşaçı yeri onların sosial statusuna uyğun olaraq üç seksiyaya bölünür. Son zamanlar teatr bir neçə dəfə restavrasiya olunmuşdur ki, bu da onun memarlıq ansamblında yeni dekorativ elementləri meydana gətirmişdir. Bu gün Merida teatrı təkcə tarixi deyil, həm də fəaliyyətdə olan mədəniyyət obyektidir. Burada hər il klassik teatr festival, keçirilir.

### 7. Dionis teatrı

Dionis teatrı Akropolun cənub-şərq qayaları üzərində yerləşir və dünyanın ən qədim teatrlarından hesab edilir. Teatr, e.ə V əsrdə tiran Pisistratanın xələfləri tərəfindən inşa edilmişdir. İldə iki dəfə-böyük və kiçik dionis bayramlarında faciə müəllifləri teatrın səhnəsində bir-biriləri ilə yarışırdılar. Dionis teatrı dəfələrlə yenidən inşa edilmiş və görünüşü dəyişilmişdir.

### 8. Arauzion teatrı

Fransanın Oranj şəhəri bir zamanlar Arauzion ismini daşıyırdı və eramızın I əsrində I Avqustun hakimiyyəti dövründə inşa edilmiş nəfis teatı ilə şöhrətlənmişdi. 391-ci ildə kilsənin qərarı ilə teatr bağlandı. Onu yenidən bərpa etmək isə XIX yüzillkdə mümkün olmuşdur. Bu gün Arauzion teatrı turistləri və mədəniyyətsevərləri qəbul edir. Burada hər yay opera festivalı keçirilir.

### 9. Epidavr teatrı

Epidavr - Arqolid yarımadasının sahilində yerləşən yunan şəhəri. Buranın əsas turist cəlb edən məkanı qədim, lakin günümüzə kimi yaxşı qorunub-saxlanmış teatrdır. E.ə. IV əsrdə inşa edilmiş teatr əlli beş sıradan ibarət iyirmi min nəfərlik yerə sahibdir. Bu unikal abidənin qazıntı işləri 1880-ci illərdə başlamış, XX yüzillikdə isə restavrasiya ilə tamamlanmışdır. Amfiteatr mükəmməl akustikaya malikdir. Səhnədəki pıçıltı ən arxa sırada belə rahatca eşidilir.

### 10. Attikalı Herodun Odeon teatrı

Bu heyranedici amfiteatr Akropolun cənub qayaları üzərində yerləşir. Teatr 161-ci ildə qədim yunan oliqarxı, Attikalı Herod tərəfindən, çox gözəl olan, lakin gənc yaşlarında vəfat edən arvadı Reqillanın xatirəsinə ucaldılmışdır. Odeon teatrı beş min nəfər üçün nəzərdə tutulub və demək olar ki, günümüzə kimi ilk görünüşünü qoruyub-saxlaya bilmişdir. Bu gün də teatrın səhnəsində konsertlər və tamaşalar verilir.











